Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 45 (8068) BAZAR, 24 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dayanıqlı elektrik enerjisi, rahat yol və içməli su ilə təminat

## Ölkəmizdə bu istiqamətlər üzrə görülən işlərə beynəlxalq təşkilatlar da yüksək qiymət verir

**Bu gün Azərbaycan nəinki regionda, hətta dünyada mükəmməl infrastruktura malik ölkə hesab olunur. Son dövr bu sahədə çox işlər görülüb və həmin işlər sayəsində əhəmiyyətli layihələrin reallaşdırılması ilə yanaşı, ölkədaxili infrastruktur da təkmilləşdirilərək yüksək səviyyəyə çatdırılıb. Beynəlxalq təşkilatlar da öz hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirirlər.**

Prezident İlham Əliyev bu barədə demişdir: “Müasir infrastrukturun yaradılması bizim hökumətin əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq əsas infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük. Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırılmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq. Biz həmçinin nəqliyyat infrastrukturuna də sərmayə yatırmışıq. Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək”. Dövlət başçısı çıxışlarında onu da qeyd etmişdir ki, bu sahələrə vəsait büdcə tərəfindən qoyulsa da, xarici sahibkarlar da bu layihələrdə investor kimi iştirak edə bilirlər.

Başqa sahələrlə yanaşı, Azərbaycanda elektrik enerjisinin gücünün artırılması, dayanıqlığının təmin olunaraq ölkəmizin hər bir guşəsinə çatdırılması üçün mükəmməl infrastruktur yaradılıb. Bunun nəticəsidir ki, bu gün biz özümüzü elektrik enerjisi ilə tam təmin etməklə bərabər, böyük həcmdə ixrac edirik. Təkcə ötən il enerji ixracından 10 milyon dollar vəsait əldə edilib.

Bu il “Şimal-2” yeni böyük elektrik stansiyasının istismara verilməsi proqnozlaşdırılır. Həmin stansiyada 400 meqavat enerji istehsal olunacaq. Bununla kifayətlənməyərək yeni elektrik stansiyalarının yaradılması istiqamətində də işlər davam etdirilir. Məqsəd sənayenin inkişafı və əhalinin artması ilə bağlı yaranan tələbatı tam ödəmək və ixracı artırmaqdır.

Ölkəmizdə infrastrukturun inkişafı bütün sahələri əhatə edir. Təkcə keçən il 2 min kilometr avtomobil yolu salınıb. Ümumiyyətlə, 2004-cü ildən bəri 15 min kilometr avtomobil yolu çəkilib. Ötən il həmçinin 920 kəndin də yol infrastrukturu yaxşılaşıb. Həmin kəndlərdə 2,2 milyon insan yaşayır. Deməli, yolların çəkilməsi ilə təkcə bu sayda insanın gediş-gəlişini yaxşılaşdırmayıb, eyni zamanda, onların yetişdirdiyi məhsulların bazarlara çıxarılmasını asanlaşdırılıb.

İndiyədək 38 şəhərin su ilə təminatı da tam həllini tapıb, 12 şəhərdə isə bu istiqamətdə işlər davam edir. Bununla yanaşı, bölgələrdə artezian quyuları qazılaraq əhali həm içməli, həm də suvarma suyu ilə təmin olunub.

Bütün bu və digər işlərin nəticəsidir ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan dünyada infrastruktur layihələrinin mükəmməlliyinə görə 34-cü yerdə qərarlaşıb. Bu, böyük nailiyyət kimi ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinə beynəlxalq təşkilat tərəfindən verilən yüksək qiymətdir.

*Rüstəm KAMAL,*
*“Azərbaycan”*

# Estoniya Respublikasının Prezidenti zati-aliləri xanım Kersti Kalyulayda

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2019-cu il*

# Banqladeş Xalq Respublikasının Prezidenti zati-aliləri cənab Md. Əbdül Həmidə

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtı Dəkkə şəhərində yaşayış binasında baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Banqladeş xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

# “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739; 2018, №11, maddələr 2187, 2200) 2.2-ci maddəsinə “vergi yoxlamalarına” sözlərindən sonra “və maliyyə bazarları sahəsində aparılan yoxlamalara” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

# “Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 395; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1414-VQD nömrəli Qanunu) 3-cü maddəsində “3 (üç)” sözləri “4 (dörd)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

# “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununun 2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**“Maddə 2. Keçid müddəaları**

2.1. Bu qanunun 1.5.2-ci, 1.7.1-ci və 1.7.2-ci maddələri 2018-ci il iyulun 1-dən tətbiq edilir.

2.2. Bu qanun (1.5.2-ci, 1.7.1-ci və 1.7.2-ci maddələr istisna olmaqla) 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

# Günter OTTİNGER:
# “Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur”



## Enerji əməkdaşlığı layihələri digər sahələrin inkişafını da stimullaşdırır

**Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı beynəlxalq qurumların hesabatlarında yüksək qiymətləndirilməklə yanaşı, mötəbər konfrans və iclaslarda da qeyd edilir. “Cənub qaz dəhlizi” Məşvərət Şurasının Bakıda keçirilən beşinci toplantısının iştirakçıları tərəfindən də bu, dönə-dönə vurğulanıb. Azərbaycanın öz iqtisadiyyatını şaxələndirmək istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlərin bəyənildiyi bildirilib.**

Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yeridərək enerji sektorundan əldə edilən gəlirləri infrastruktur layihələrinə, qeyri-neft sektorunun inkişafına yönəldir. Dörd seqmentindən üçü artıq fəaliyyətdə olan, sonuncusu gələn il işə düşəcək “Cənub qaz dəhlizi” ölkəmizə yeni gəlir gətirərək bu istiqamətdə tədbirlərin ardıcıllıqla davam etdirilməsinə imkan verəcək.

Məşvərət Şurasının toplantısında “Əsrin müqaviləsi”nin imzalandığı 1994-cü ilin Azərbaycanın inkişafı baxımından dönüş nöqtəsi olduğu xatırlandı. Bildirildi ki, həmin vaxtdan ölkəyə milyardlarla dollar xarici sərmayə cəlb edildi, on minlərlə yeni iş yerləri açıldı. Azərbaycan münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdi. Bunun nəticəsində neftdən gələn gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə və müasir infrastrukturun yaradılmasına yönəldildi. Qeyri-neft sektorunu inkişaf etdirmək üçün geniş imkan yarandı. Dövlət bu sektorun inkişafını prioritet elan etsə də, enerji sektoru yenə də iqtisadiyyatın aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olaraq qalır.

Sözügedən tədbirdə Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, məşvərət şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger demişdir: “Azərbaycan güclü artım tempinə malik ölkədir və çağırışların öhdəsindən inamla gəlir. Azərbaycan həmçinin öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur. Bu, açıq-aşkar sizin əməkdaşlığı genişləndirə biləcəyiniz sahədir”.

*Ardı 5-ci səh.*

# O gün tezliklə gələcək

**Zəngilan rayonu 1993-cü il oktyabrın 30-da erməni işğalçıları tərəfindən işğal olunanda minlərlə sakin el-obasından didərgin düşdü. O vaxtdan 25 il keçməsinə baxmayaraq, zəngilanlılar yurd-yuvalarını unutmur, doğma rayonlarına dönəcəkləri günü səbirsizliklə gözləyirlər.**

Zəngilanlılar respublikanın 46 rayon və şəhərində, əksər hissəsi isə Bakı və Sumqayıt şəhərlərində məskunlaşıblar. Belə bir böyük əraziyə səpələnmiş zəngilanlıların sosial, kommunal, səhiyyə, təhsil və digər məsələri ilə məşğul olmaq, onların üzləşdikləri problemləri vaxtında həll etmək üçün icra strukturları xüsusi iş rejimi ilə işləyirlər.

Məcburi köçkünlər onlara olan dövlət qayğısını daim hiss edir və bunu real həyatlarında görürlər. Bu qayğının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin prioritet məsələlərdən biri kimi yanaşdığı qaçqın və məcburi köçkünlərə dövlət qayğısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

*Ardı 5-ci səh.*

# Ermənistan Sarkisyan rejiminin yaratdığı problemlərdən qurtula bilmir

**Ermənistanda Serj Sarkisyan hakimiyyəti dönəmindən qalan sosial-iqtisadi problemlər Nikol Paşinyan iqtidarını gözlənildiyi kimi çətin vəziyyətə salmaqdadır.**

Çünki bu problemlərin kifayət qədər dərin kökləri var və onların həllinin əsas yolu Ermənistanın işğal siyasətinə son qoyaraq regional əməkdaşlıqda iştirak etməsidir. Əks təqdirdə, ölkənin ciddi problemlər yaşaması qaçılmaz sayılır və elə bunun nəticəsidir ki, etiraz aksiyaları davam edir.




## Zavod işçiləri tətil etdilər

Bu arada diqqətçəkən məqamlardan biri Alaverdi şəhərində yerləşən mis emalı zavodunun 100-dən artıq əməkdaşının tətil elan etməsidir. Aksiya iştirakçıları dövlət əhəmiyyətli dəmir yolunu bağlayaraq gələcək talelərinin necə olacağı ilə maraqlanırlar. Onlara verilən məlumata görə, martın 1-dən işsiz qalacaqlar. Zavod 4 aydır əməkdaşlarına əməkhaqqı verə bilmir. Səhmdarların yerli banklara külli miqdarda borcu yaranıb. Nəticədə, mis emalı müəssisəsinin bağlanılmasına qərar verilib.

Etirazçılar deyirlər ki, bundan bir müddət əvvəl Texut mədəninin fəaliyyəti borc səbəbindən dayandırılıb, 500 nəfər işsiz qalıb. Onlar da eyni aqibəti yaşamaq istəmirlər.

*Ardı 8-ci səh.*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, №11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2015, №4, maddə 348) 164.1-ci maddəsində "təqdim edildikdə" sözləri "əsasında" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər şəxslərdən tələb olunmur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1470-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1470-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 157, № 10, maddə 886; 2013, № 7, maddə 792; 2014, № 11, maddə 1348) ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin.

2. 7-ci maddənin ikinci cümləsi çıxarılsın.

3. 8-ci maddə üzrə:

3.1. ikinci cümlədə "şəxsiyyət vəsiqəsini, ixtisas diplomunu, sağlamlığı haqqında tibbi arayışı, hərbi vəzifəsi haqqında hərbi biletini və ya təhkim şəhadətnaməsini, lazım olarsa, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədləri" sözləri "ixtisas şəhadətnaməsini (diplomunu) və sağlamlığı haqqında tibbi arayışı" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Vəsatətdə (ərizə-anketdə) qeyd edilmiş digər məlumatların yoxlanılması üçün şəxsiyyət vəsiqəsi, ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə və ya hərbi bilet, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər ərizəçidən tələb olunmur.".

4. 17-ci maddəyə "sahibinin" sözündən əvvəl "etibarlıq müddəti bitdikdə (dənizçi vəzifəsində işləməyin davam etdirilməsi üçün), onun" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1473-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1473-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7; 2017, № 11, maddə 1961; 2018, № 3, maddə 406, № 5, maddə 848) aşağıdakı dəyişikliklər edilsin:

1. 18.1.3-cü maddə ləğv edilsin.

2. 22.2-ci maddənin birinci cümləsində "Gəminin üzgüçülüyə yararlığı haqqında şəhadətnaməni, ölçü" sözləri "Ölçü" sözü ilə əvəz edilsin.

3. 35-ci maddədə "üzgüçülüyə yararlı olması haqqında şəhadətnamə aldıqdan" sözləri "yoxlamanın nəticəsinə uyğun olaraq üzgüçülüyə yararlı olduğu müəyyən edildikdən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Xəzəryanı dövlətlərin hökumətləri arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzəryanı dövlətlərin hökumətləri arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzər dənizinin hüquqi statusu haqqında" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1488-VQ nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1488-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının Qızılağac Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Qızılağac Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1471-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1471-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 noyabr tarixli 325 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin Strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin (bundan sonra - Agentlik) ilkin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsi vəsaiti hesabına formalaşdırılır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 noyabr tarixli 325 nömrəli Fərmanının 6.4-cü bəndinə uyğun olaraq Agentliyin balansına verilən dövlət əmlakının qiymətləndirilərək Agentliyin nizamnamə fondunda nəzərə alınması üçün müvafiq təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.5. innovasiya fəaliyyətinə təsir edəcək normativ hüquqi aktlar hazırlanarkən bu fərmanın 6-cı hissəsinin icrasını nəzarətdə saxlasın;

4.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

5.1. Azərbaycan Respublikasının ərazisində innovasiya fəaliyyətinin dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların (layihələrin) əlaqələndirilməsini həyata keçirsin;

5.2. bu fərmanın 6-cı hissəsində göstərilən normativ hüquqi aktların razılaşdırılması ilə bağlı tədbirlər görsün;

5.3. Agentliyin vəsaitindən istifadə qaydasının layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Mərkəzi icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər hazırladıqları innovasiya fəaliyyətinə təsir edəcək normativ hüquqi aktların normayaratma orqanına təqdim edilməzdən əvvəl "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə razılaşdırılmasını təmin etsinlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1430-VQD nömrəli Qanunu) 2.1-ci maddəsinə "vergi yoxlamaları," sözlərindən sonra "maliyyə bazarları sahəsində aparılan yoxlamalar," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1503-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1503-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 565, № 11, maddə 1997) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nın 1.4-cü və 1.5-ci bəndləri ləğv edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturunun optimallaşdırılması və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 24 iyun tarixli 976 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 noyabr tarixli 326 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, №11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 483 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" üzrə:

1.1.1. aşağıdakı məzmunda 3.1.50-1-ci yarımbənd əlavə edilsin:

"3.1.50-1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsində göstərilən reabilitasiya vasitələrinin texniki normativ hüquqi aktlara uyğunluğuna nəzarəti və onların əlilliyi olan şəxslərə yaşayış yeri üzrə verilməsini həyata keçirmək;";

1.1.2. 3.1.52-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.52. əlilliyi olan şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının apardığı elektron informasiya ehtiyatlarından istifadə etməklə əlilliyi olan şəxslərin reyestrini elektron formada aparmaq;";

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti haqqında Əsasnamə"nin 3.1.13-cü yarımbəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 976 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1072; 2017, № 5, maddə 829; 2018, № 3, maddə 434) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"nin 3.1.29-cu yarımbəndindən "məlumat bazasının təşkili," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununun 2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 2. Keçid müddəaları**

2.1. Bu qanunun 1.2.1-ci, 1.4-cü, 1.8.2-ci və 1.8.4-cü maddələri 2018-ci il iyulun 1-dən tətbiq edilir.

2.2. Bu qanun (1.2.1-ci, 1.4-cü, 1.8.2-ci və 1.8.4-cü maddələr istisna olmaqla) 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1502-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1502-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1514-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1514-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1462-VQD nömrəli Qanununun tətbiqi və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununun tətbiqi və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 419 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1462-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununun tətbiqi və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 419 nömrəli Fərmanının 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. Müəyyən edilsin ki:

4.1. Bu fərmanın 2.2-ci ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinin üçüncü abzasının birinci cümləsinə münasibətdə), 2.3-cü və 2.4-cü ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinin üçüncü abzasının birinci cümləsinə münasibətdə) bəndləri 2018-ci il iyul ayının 1-dən qüvvəyə minir;

4.2. Bu fərman (2.2-ci ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinin üçüncü abzasının birinci cümləsinə münasibətdə), 2.3-cü və 2.4-cü ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinin üçüncü abzasının birinci cümləsinə münasibətdə) bəndləri istisna olmaqla) 2019-cu il yanvarın 1-dən qüvvəyə minir.".

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1463-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1463-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2019-cu il*

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7, I kitab, maddə 1425; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD və 1283-VQD nömrəli qanunları) 6.4-cü maddəsindən sonra aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin:

“Qeyd. Bu qanunun 6.4.1-ci maddəsində nəzərdə tutulmuş sənəd üzrə məlumatların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1472-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1472-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2019-cu il*

## “Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1994-cü il 15 aprel tarixli Sazişdə dəyişikliklər edilməsi barədə” Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Düşənbə şəhərində keçirilmiş 2018-ci il 1 iyun tarixli iclasında imzalanmış “Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1994-cü il 15 aprel tarixli Sazişdə dəyişikliklər edilməsi barədə” Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Türk Akademiyasının maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Türk Akademiyasının maliyyə qaydaları haqqında” 2018-ci il sentyabrın 2-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında” 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında” 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımalar iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımalar iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında” 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında” 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında” Sazişin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında” 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2019-cu il*

## “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Sərhəd qoşunları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1180-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

1. Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 760 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 683; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 141; 2002, № 5, maddə 252; 2004, № 4, maddə 199, № 5, maddə 312; 2013, № 11, maddə 1248) ilə təsdiq edilmiş “Sərhəddə fərqlənməyə görə” medalı haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddədə “qoşunlarının” sözü “mühafizə orqanlarının” sözləri ilə əvəz edilsin;

1.2. 3-cü maddənin yeddinci abzasında “qoşunlarına” sözü “mühafizə orqanlarına” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408; 2014, № 2, maddə 86; 2016, № 1, maddə 6; 2017, № 3, maddə 327; 2018, № 1, maddə 8, № 10, maddə 1968) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulanın ikinci abzasından “və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər qoşunların” sözləri çıxarılsın;

2.2. 4-cü maddənin ikinci hissəsində “Daxili və sərhəd qoşunlarında” sözləri “Daxili qoşunlarda və sərhəd mühafizə orqanlarında” sözləri ilə əvəz edilsin, “qoşunların” sözündən sonra “(orqanların)” sözü əlavə edilsin;

2.3. 15-ci maddənin ikinci hissəsində “Azərbaycan Respublikası Silahlı Qüvvələri və qoşun növlərinin müxtəlif birləşmələrinin, eləcə də xüsusi qoşunların” sözləri “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin” sözləri ilə əvəz edilsin;

2.4. 34-cü maddədən “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin növləri, həmçinin Sərhəd Qoşunları və Daxili Qoşunlar üzrə” sözləri çıxarılsın;

2.5. 243-cü maddənin beşinci hissəsində “Sərhəd Qoşunlarının” sözləri “sərhəd mühafizə orqanlarının” sözləri ilə, “qoşunların” sözü “orqanların (qoşunların)” sözləri ilə əvəz edilsin.

3. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2, maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262) 44-cü maddəsinin birinci hissəsindən “və sərhəd qoşunlarının, habelə daxili qoşunların” sözləri çıxarılsın.

4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501; 2015, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab) maddə 2207; Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1344-VQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci abzasda “Hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanunu” sözləri “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu” sözləri ilə əvəz edilsin;

4.2. ikinci və üçüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasının Silahlı Qüvvələrində (Azərbaycan Ordusunun və sərhəd mühafizə orqanlarının hərbi gəmiləri (katerləri) və bu gəmilərin (katerlərin) döyüş təminatını həyata keçirən sahil hissələri istisna olmaqla) və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) - kiçik gizir, gizir, baş gizir;

Azərbaycan Ordusunun və sərhəd mühafizə orqanlarının hərbi gəmilərində (katerlərində) və bu gəmilərin (katerlərin) döyüş təminatını həyata keçirən sahil hissələrində - kiçik miçman, miçman, baş miçman.”.

5. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580; 2002, № 10, maddə 586; 2005, № 5, maddə 391, № 6, maddə 464; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 12, maddə 1005; 2007, № 8, maddə 745; 2013, № 11, maddə 1314; 2014, № 12, maddə 1524; 2015, № 2, maddə 78, № 11, maddə 1297; 2017, № 12, maddə 2191) 6.2.4-cü maddəsində “Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin etmək üçün saxlanılan hərbi hissələrin, daxili və sərhəd qoşunlarının” sözləri “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi əmlakı” sözləri ilə əvəz edilsin.

6. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 2, № 8, maddə 415; 2004, № 8, maddə 598; 2007, № 11, maddə 1053; 2011, № 6, maddə 483; 2017, № 1, maddə 5) 11.2-ci maddəsindən “sərhəd qoşunlarında və daxili qoşunlarda,” sözləri çıxarılsın.

7. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274, № 12 (I kitab), maddə 680; 2004, № 6, maddə 416, № 11, maddə 891; 2005, № 2, maddə 62, № 4, maddə 278, № 7, maddələr 576, 584, № 12, maddə 1091; 2007, № 7, maddə 712; 2008, № 6, maddə 457; 2009, № 2, maddə 44; 2010, № 4, maddə 276, № 7, maddə 592; 2011, № 3, maddə 163; 2012, № 5, maddə 409; 2013, № 6, maddə 592; 2015, № 5, maddə 490; 2017, № 5, maddə 705; 2018, № 1, maddə 4, № 3, maddə 389) 35.5-ci maddəsinin beşinci cümləsində “Sərhəd qoşunlarının” sözləri “Sərhəd mühafizə orqanlarının” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1460-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1460-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2019-cu il*

## “Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında” 2018-ci il sentyabrın 2-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” 2018-ci il noyabrın 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

# ATƏT PA-nın sessiyası çərçivəsində Azərbaycanın bu təşkilatla münasibətləri müzakirə edilib

ATƏT Parlament Assambleyasının (ATƏT PA) qış sessiyasında iştirak etmək məqsədilə fevralın 19-dan 23-dək Avstriyanın paytaxtı Vyana şəhərində səfərdə olan Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis Sədrinin müavini Bahar Muradova səfər çərçivəsində ikitərəfli görüşlər keçirib. AZƏRTAC xəbər verir ki, ATƏT PA-nın prezidenti Georgi Tsereteli ilə görüşdə Azərbaycan-ATƏT PA münasibətləri, qış sessiyasının gündəliyində duran məsələlər, o cümlədən həlli uzadılan münaqişələr, seçkilərə




müşahidə missiyalarının müşahidəçiləri üçün təlimat müzakirə olunub, digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədri, İsveçrə parlamentində Azərbaycanla dostluq qrupunun rəhbəri Filippo Lombardi ilə görüşdə parlamentlərarası əlaqələrin perspektivləri, assambleya çərçivəsində əməkdaşlıq məsələləri ətrafında məsləhətləşmələr keçirilib. Görüş zamanı, həmçinin qarşılıqlı əhəmiyyət kəsb edən bir sıra məsələlərə toxunulub.

# Günter OTTİNGER: "Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur"

*Əvvəli 1-ci səh.*

G.Ottinger Azərbaycanın təkcə enerji sahəsində deyil, digər sahələrdə də əməkdaşlığı genişləndirmək marağında olduğunu qeyd etmişdir. Bildirmişdir ki, kənd təsərrüfatı məhsullarının emalına, su idarəetməsinə, yol, dəniz və dəmir yolu dəhlizlərinə, habelə ölkənin rəqəmsal infrastrukturuna sərmayə yatırmaqla Azərbaycan iqtisadiyyatının gələcək şaxələndirilməsi ilə bağlı böyük imkanlar mövcuddur. Avropa İttifaqı enerji məsələlərində, məsələn, neft və qaz üzrə əməkdaşlığa sadiq olduğu qədər Azərbaycanın şaxələndirmə planlarını da dəstəkləyir.

Məşvərət şurasının toplantısında ayrı-ayrı ölkələri təmsil edən nümayəndələr Prezident İlham Əliyevlə görüşlərində də "Cənub qaz dəhlizi" layihəsindən bəhs edərkən digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunmuşlar. ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Sandra Oudkirklə söhbətdə bərpa olunan və alternativ enerji, eləcə də digər sahələrdə iki ölkə arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşündə Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft-qaz, tikinti və iqtisadiyyatın digər sektorlarında da uğurla fəaliyyət göstərdiklərini və ölkəmizin onların fəaliyyətindən məmnun olduğunu bildirmişdir.

Azərbaycan enerji layihələri çərçivəsində özünü dünyaya etibarlı tərəfdaş kimi təqdim etmiş, mükəmməl əməkdaşlıq formatı yaratmışdır. Azərbaycan xarici investisiyaları 100 faiz qoruyan ölkədir. Bu səbəbdən də investorlar onlarla bağlanan müqavilələrdə bir sözün belə dəyişdirilməyəcəyinə əmindirlər. Beləliklə, digər sektorlara da sərmayə cəlb etməyə imkan yaranır. Bu da öz növbəsində iqtisadiyyatı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə dəstək verir.

Məşvərət şurasının iclasında Prezident İlham Əliyev bir daha qeyd etmişdir ki, "enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini qaldırmağa nail olmuşuq". Dövlət başçısı bu baxımdan "Cənub qaz dəhlizi" layihəsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# O gün tezliklə gələcək

*Əvvəli 1-ci səh.*

Təkcə bu faktı qeyd etmək kifayətdir ki, dövlət başçısının müvafiq sərəncamları ilə Abşeron rayonunda zəngilanlı məcburi köçkünlər üçün qəsəbə salınıb. Hazırda 760 ailə həmin yaşayış massivində tam təmin olunmuş mənzillərdə yaşayır. Rayonun icra strukturları, dövlət təşkilatları da Masazırda fəaliyyət göstərir.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Abşeron rayonunun Masazır qəsəbəsində Zəngilan rayonundan olan ailələr üçün yeni salınmış şəhərcikdə tarix muzeyinin fəaliyyəti də bərpa olunub.

Muzeydə rayonun inzibati xəritəsi, kəndlərinin, sosial müəssisələrinin, ecazkar təbiət nümunələrinin şəkilləri asılıb. Bu şəkillər vasitəsilə rayon barədə ətraflı təəssürat yaradır. Muzeydə ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin apardıqları siyasəti və respublikamızın inkişafında əvəzsiz xidmətlərini təcəssüm etdirən fotolara da geniş yer ayrılıb, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı imzalanan sərəncam və fərmanlar öz əksini tapıb. Burada videoçarxlar nümayiş olunur.

Tariximizin yaşadılması və unudulmamasında gənc nəslin rolunun xüsusi əhəmiyyət kəsb etdiyi üçün rayon təhsil şöbəsi ilə birlikdə xüsusi proqram da hazırlanıb. Muzeyin kollektivi rayon məktəblərində açıq dərslər təşkil edir, Zəngilanın keçmişi və bu günü barədə informasiyalarla insanların bilgilərini zənginləşdirirlər. Rayon sakinlərinin məskunlaşdıqları digər yerlərdəki təhsil müəssisələri ilə sıx əlaqə saxlanılır.

Hazırda respublika sənayesinin müxtəlif sahələrində - tikinti, neft sektoru, kənd təsərrüfatında və digər istehsalat müəssisələrində çalışan xeyli zəngilanlı var. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların da sayı ilbəil artır.

Məlum olduğu kimi, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda insanların sağlamlığının qorunması məsələləri də öz əksini tapıb. Zəngilan Rayon Mərkəzi Poliklinikasında 11 həkim kabineti fəaliyyət göstərir. Daha bir həkim məntəqəsi Sabirabad rayonunda insanların sağlamlığının keşiyində durur. Şəkərli diabet xəstələrinə dərman vasitələri pulsuz paylanır və onların müalicəsi üçün digər lazımi tədbirlər görülür. Zəngilanlılar köçkün həyatı yaşasalar da, ölkənin iqtisadi-sosial həyatında fəal iştirak edir, respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verir, xidmətləri ölkə rəhbərliyi tərəfindən qiymətləndirilir.

Bir sözlə, respublikamızda qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının müdafiəsi, məşğulluğunun artırılması, ölkə rəhbərinin uğurlu xarici siyasəti sayəsində atılan addımlar zəngilanlılarda da belə inam yaradıb ki, ata-baba torpaqlarına qayıdacaqları günə çox az qalıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov fevralın 23-də Şirvan Şəhər Polis Şöbəsində növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarından polis orqanlarının fəaliyyəti ilə bağlı məsələlərlə, habelə vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müraciət edən 87 nəfər iştirak edib.

Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün müvafiq baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb. Polisin fəaliyyətinə aid olmayan ərizələrin baxılması üçün aidiyyəti üzrə digər dövlət orqanlarına göndəriləcəyi nəzərə çatdırılıb.

Sakinlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlət başçısına minnətdarlıq edib, onun ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü siyasətini bundan sonra da dəstəkləyəcəklərini vurğulayıblar.

* * *

Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən fevralın 23-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ağsu şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Ağsu, Şamaxı, İsmayıllı və Qobustan rayonlarının sakinləri, eləcə də bu bölgədə məskunlaşan məcburi köçkünlərin yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən malların idxal və ixracı, bununla əlaqədar sənədləşmə qaydaları, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# "Srebrenitsa anaları" Assosiasiyasının nümayəndə heyəti Milli Məclisdə olub

Fevralın 23-də Xocalı soyqırımının anım tədbirlərində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bosniya və Herseqovinanın "Srebrenitsa anaları" Assosiasiyasının nümayəndə heyəti Milli Məclisdə deputatlarla görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov qonaqlara Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı barədə ətraflı məlumat verib. Bildirib ki, Ermənistan hələ də BMT-nin 4 qətnaməsinə məhəl qoymur və Azərbaycan torpaqlarını işğal altında saxlayır. 1992-ci il fevralın 26-da Xocalı şəhərində bir gecədə 106-sı qadın, 63-si uşaq olmaqla 613 Azərbaycan vətəndaşı qətlə yetirilib, xeyli insan əsir götürülüb və işgəncələrə məruz qalıb. Dünyanın 10-dan çox ölkəsi və ABŞ-ın 20-dən çox ştatı Xocalı soyqırımının tanınması barədə qətnamə qəbul edib.



Milli Məclisin deputatları Flora Qasımova və Bəxtiyar Əliyev Xocalı həqiqətləri barədə danışıblar. Bildiriblər ki, hazırda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində bütün dünyada Xocalı soyqırımının tanıdılması istiqamətində işlər davam etdirilir.

"Srebrenitsa anaları" Assosiasiyasının sədri Munira Subaşiç bildirib: "1995-ci ildə biz də soyqırımına məruz qalmışıq. Ona görə də sizi yaxşı başa düşür və dərdinizə şərik oluruq". Qonaq məlumat verib ki, Srebrenitsada da üç gün ərzində 10 mindən çox insan, o cümlədən 570 qadın və 1000-dən çox uşaq öldürülüb. Bu soyqırımının günahkarları cəzalandırılıb və dünya bu soyqırımını tanıyır. Avropa İttifaqı 11 iyul tarixini Srebrenitsa Qurbanlarının Anım Günü kimi təsis edib. Həmin ərazidə böyük memorial kompleks inşa edilib.

Qonaqlar Xocalı soyqırımının da dünya birliyi tərəfindən tanınacağına inamlarını ifadə ediblər və bunun üçün köməklərini əsirgəməyəcəklərini diqqətə çatdırıblar.

# Avropa azərbaycanlıları Brüsseldə izdihamlı Qarabağ mitinqi keçirib

**Mitinqdə qəbul olunan bəyanat Avropa Parlamenti, beynəlxalq təşkilatlar, səfirliklər, bir çox dövlət və hökumət rəhbərləri daxil olmaqla 2000-dək ünvana çatdırılıb**

Xocalı soyqırımının 27-ci ildönümü ərəfəsində Avropa İttifaqının siyasi mərkəzi - Belçika Krallığının Brüssel şəhərində azərbaycanlıların Qarabağ həqiqətləri və Xocalı soyqırımının tanıdılmasına həsr olunmuş izdihamlı mitinqi keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, mitinqdə Avropanın müxtəlif ölkələrindən təxminən 800-dək soydaşımız, eləcə də Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor üzvləri iştirak ediblər.

Azərbaycan himninin səsləndirilməsi ilə başlayan aksiya İsveçrə Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Qasım Nəsirov və Fransa-Azərbaycan Dialoq Assosiasiyasının sədri Günel Səfərovanın moderatorluğu ilə keçib.

Mitinqdə çıxış edən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri ingilis, alman, fransız, italyan, rumın və digər dillərdə "Xocalıya ədalət!", "Azərbaycan sülh istəyir!", "Günahsız körpələri öldürməyin!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandır!", "Qarabağa qayıtmaq istəyirik!", "Dilqəmə və Şahbaza azadlıq!" və digər şüarlarla Avropa Parlamentinə, beynəlxalq təşkilatlara çağırış ediblər.

Mitinq iştirakçıları 27 il əvvəl Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımına beynəlxalq miqyasda hüquqi-siyasi qiymət verilməsi, işğal edilmiş Azərbaycan torpaqlarının geri qaytarılması üçün Ermənistana təzyiq göstərilməsi, öz yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpa olunması, Dilqəm Əsgərov və Şahbaz Quliyev də daxil olmaqla bütün azərbaycanlı əsir və girovların azad edilməsi, münaqişə ilə bağlı beynəlxalq təşkilatların qəbul etdikləri məlum qərar və qətnamələrə Ermənistan tərəfinin riayət etməsi tələblərini səsləndiriblər. Aksiyanın sonunda Avropa Parlamentinə ünvanlanan bəyanat qəbul edilib. Bəyanat Avropa Parlamentinin məsul şəxsləri, beynəlxalq təşkilatlar, səfirliklər, bir çox dövlət və hökumət rəhbərləri daxil olmaqla 2000-dək ünvana çatdırılıb.

Mitinq ərzində yerli sakinlərə, turistlərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkiləri əks etdirən broşürlər paylanıb.

Media nümayəndələrinin də iştirak etdikləri izdihamlı mitinq kütləvi informasiya vasitələrində, eləcə də sosial şəbəkələrdə geniş işıqlandırılıb.







# Ə.Kərimlinin məqsədi qarşıdurma yaratmaqdır

**Dağıdıcı müxalifətin Azərbaycan dövlətinin və xalqının milli maraqlarına zidd fəaliyyəti, daim düşmən dəyirmanına su tökdüyü bu gün artıq sübuta ehtiyacı olmayan reallıqdır. Xüsusən, AXCP və onun başında dayanan Əli Kərimlinin, ona yaxın adamların bu məqsədlə antiazərbaycançı mərkəzlərlə, o cümlədən erməni və ermənipərəst dairələrlə ünsiyyətdə olması zaman-zaman ifşa edilib.**

Bir illik iqtidarları ilə məlum siyasətbazlar Azərbaycan xalqının etimadından birdəfəlik məhrum olduqlarından onların başında durduqları dağıdıcı müxalifət partiyaları da simasız qurumlardan başqa bir şey deyillər. Əsl müxalifətçilik yolundan azan həmin qurumlar siyasi mübarizə metodunu ancaq antiazərbaycançı fəaliyyətdə, respublikamızın müstəqilliyini və yüksəlişini həzm edə bilməyən xarici dairələrlə əməkdaşlıqda, müəyyən siyasi mərkəzlərdən aldıqları sifarişlər əsasında qarşıdurmalar və iğtişaşlar yaratmaqda gördülər.

Bu gün də dağıdıcı müxalifət köhnə vərdişindən əl çəkmir, meydan eyforiyası ilə yaşayır. Amma görünən odur ki, dağıdıcı müxalifətin məqsədi sadəcə mitinq keçirmək deyil. Çünki ölkədə mitinq keçirmək üçün hər hansı bir əsas yoxdur. Ən azından seçkilər vaxtı da deyil. Lakin Ə.Kərimlinin dağıdıcı qruplaşması yenə mitinq həvəsinə düşüb. Amma yanvarın 19-da baş verənlər göstərdi ki, bunların əsl məqsədi mitinq adı altında qarşıdurma yaratmaq, ölkədə sabitliyi pozmaqdır.

Ə.Kərimli AXC qaragüruhunun bir illik iqtidarına son qoyulmasından sonra daim öz fəaliyyətinin antiazərbaycançı dairələrlə əlaqələndirib. Əslində, onun fəaliyyəti sağlam müxalifətçilik prinsipləri ilə tamamilə ziddiyyət təşkil edib. O, təmsil olunduğu qurumun daxilində öz rəhbərinə belə xəyanət edib. Həm buna, həm də dövlətin milli maraqlarını satdığına, müxalifətçiliklə bir araya sığmayan hərəkətlərinə görə ətrafındakılar ondan üz döndəriblər. Onun yenidən mitinq həvəsinə düşməsinin səbəbi də aldığı yeni sifarişlərdir.

Antiazərbaycançı şəbəkə müəyyən vaxtlarda, Azərbaycanın yeni uğurlara imza atdığı dönəmlərdə xüsusən fəallaşır. Bu gün Azərbaycan inkişafının yeni keyfiyyət mərhələsinə qədəm qoyub. İqtisadi islahatlar öz bəhrəsini verir, ölkəmizin təşəbbüsü ilə reallaşan enerji layihələri işə düşüb. Azərbaycanın inkişafla bağlı qarşıya qoyduğu hədəflərə sürətlə çatacağı qaçılmazdır. Bu gün həm də sosial sahədə mühüm addımlar atılır, minimum əməkhaqları və əmək pensiyalarının məbləği əhəmiyyətli dərəcədə artırılır. Yeni vergi islahatları mühüm sosial yenilikləri ilə əlamətdardır. "ASAN xidmət" mərkəzlərinin yaradılması dövlət-vətəndaş münasibətlərində tamamilə yeni mərhələ yaradıb, vaxt itkisinə, bürokratiyaya son qoyub.

Təbii ki, bütün bunları antiazərbaycançı dairələr görür və təlaş keçirirlər. Çünki əhalisi əsasən müsəlman olan dövlətin müstəqil siyasət yürütməsi, inkişafı, dünyada söz sahibi kimi seçilməsi, enerji təhlükəsizliyi məsələlərində mühüm rol oynaması xüsusən erməni təəssübünü çəkən siyasi mərkəzləri qıcıqlandırır. Bir tərəfdə güclü Azərbaycanın, digər tərəfdə isə məzlum Ermənistanın olması daim onları narahat edib. Ona görə həmin dairələrin məqsədi Azərbaycanı inkişaf yolundan döndərmək, onun uğurlarına kölgə salmaq, yüksək beynəlxalq imicini ləkələməkdir. Bu yolda antiazərbaycançı dairələr illərdir bir çox planlarını işə salıblar, lakin hər biri güclü Azərbaycan dövlətinin qarşısında iflasa uğrayıb.

Antiazərbaycançı dairələrin bu yolda ən yaxın istifadə vasitəsi isə dağıdıcı müxalifət olub. Ə.Kərimli illərdir ki, onlara Azərbaycanla bağlı yalan informasiyalar ötürür. Xaricdə mənzillənən internet resurslarına müsahibələrində ölkəmizin uğurlarına qara yaxmaqla məşğuldur. Elə son müsahibəsi də buna misaldır. Maraqlıdır ki, müsahibəsində onun isterik vəziyyətdə olduğu aydın seçilir və o, hətta dövlətin uğurlarını öz adına çıxmaq istəyir, özünün müxalifətçilik fəaliyyəti ilə əlaqələndirir. Lakin Ə.Kərimlinin indiyədək inkişafa xidmət edən, milli maraqlarımızın təmin olunmasına yönələn proqramını, platformasını, təkliflərini isə görən olmayıb. Keçirdiyi mitinqlərdə isə həmişə eyni yalanları təkrarlamaqla məşğul olub. Lakin artıq özü də dərk edir ki, bu yalanlar cəmiyyətdə qəbul olunmur. Ona görə xarici dairələrdən aldığı yeni sifarişlər əsasında cəmiyyətdə qarşıdurma yaratmağa cəhd göstərir. 19 yanvarda baş verənlər, daha sonra yanvarın 20-də - ümummilli hüzn günündə etdikləri utanverici hərəkətlər bunu təsdiq edir.

Dövlət mitinqlərin keçirilməsinin əleyhinə deyil. Amma bu mitinqlər vətəndaş itaətsizliyinə çağırışla müşayiət olunursa, yaxud dövlət və konstitusion quruluşun əleyhinə çağırışlar səsləndirilirsə, demək, məqsəd cəmiyyətdə qarşıdurma və gərginlik yaratmaqdır. Müxalifətin fevralın 23-nə keçirmək istədiyi mitinqə icazə verilməməsinin səbəbi də budur. Qeyd edək ki, yanvarın 19-da müxalifətin keçirdiyi mitinqdə ictimai asayişin pozulması, mitinq iştirakçılarının nəqliyyatın hərəkətinə maneçilik törətməsi, asayiş keşikçilərinə qarşı sərt davranış və onların qanuni tələblərinə müqavimət göstərilməsi faktlarının araşdırılması hələ başa çatmayıb.

Mitinq təşkilatçıları hər hansı qanun pozuntusuna yol verilməyəcəyi və aksiyanın idarə olunacağı barədə üzərlərinə öhdəlik götürməlidirlər. Amma nədənsə indiki halda mitinqin təşkilatçıları qanunsuz halların təkrarlanmayacağı barədə üzərlərinə heç bir məsuliyyət götürmürlər və ümumiyyətlə, bunda maraqlı deyillər. Bu da onların təxribatçılıq məqsədlərindən xəbər verir. Belə olan halda aidiyyəti dövlət orqanlarının hər hansı kütləvi tədbirin keçirilməsini məqsədəuyğun hesab etməmələri tamamilə başadüşüləndir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




## XX əsrin faciəsi - Xocalı soyqırımı



# "Ruhum Xocalıda ölüb, cismim 27 ildir acılarla yaşayır"

Aradan 27 il keçib. Amma o danışdıqca sanki dəhşətli acıları sən də yaşayırsan. Çəkdiyi işgəncələrdən nitqində yaranan qüsur, çöhrəsindəki kədər, iztirab Xocalı soyqırımının dəhşətli mənzərəsini canlandırır göz önündə. Elə bir dəhşətli film səhnəsi yoxdur ki, orada onun yaşadığı acılar nümayiş olunsun. Lakin o, erməni vandalizminin qurbanı kimi həmin acıları hər gün yaşayır.

26 gün erməni əsirliyində dəhşətlər yaşayan, o gecə anası, həyat yoldaşı və azyaşlı əkiz oğlanları erməni vəhşilərinə əsir düşən Hüseynağa Quliyev vandalizmin canlı şahididir. 26 rəqəmi onun üçün ən uğursuz, qara təqvim günüdür. Çünki fevralın 26-da, Xocalı yerlə yeksan edilib, qız-gəlini, qocası-gənci əsir götürüləndə Hüseynağa 26 yaşında idi və düz 26 gün əsirlikdə görünməmiş işgəncələr yaşayıb. Xocalı soyqırımı baş verənədək özünümüdafiə taborunun post komandiri olan Hüseynağa nə qədər ağır olsa da, 27 il öncə yaşadığı dəhşətləri belə xatırlayır:





### Artıq faciənin qarşısını almaq mümkün deyildi

- Ailənin tək oğlu idim. Evlənmişdim və iki yaş yarımında olan əkiz oğlanlarım var idi. O dövrdə evin tək oğlu əsgərliyə aparılmırdı. Amma 1988-ci ildən könüllü olaraq özünümüdafiə taboruna qoşulmuşdum. Tofiq Hüseynovun rəhbərlik etdiyi könüllülərdən ibarət taborda post komandiri təyin olunmuşdum. Həmin vaxt Xocalının icra başçısı olan Elman Məmmədov əhalini qorumaq üçün əlindən gələni edirdi. Bütün günü postda dururdum. Tapşırıq verilmişdi ki, əhalinin təşvişə düşməməsi üçün kimsə ailəsini Xocalıdan çıxarmasın.

Fevralın 25-i axşam postda idim. Ermənilər Xocalını mühasirəyə almağa başladılar. Axşam dəhşətli atışmalar başladı. Elə vəziyyət yaranmışdı ki, başımızı səngərdən çıxara bilmirdik. Evlər od tutub yanırdı. Artıq faciənin qabağını almaq mümkün deyildi. Hamı qaçırdı. Məcburən geri çəkilməli olduq. Əlimizdəki avtomat silahlarla hücuma keçən tanklara, PDM-lərə qarşı nəsə edə bilməzdik. Bizim kəndimizdə Məhsəti türklərinin şəhərciyi var idi, oranı yarım saata yerlə yeksan etmişdilər.

Qoca, uşaq fərqi yox idi, hamısını tankla əzirdilər. Tez ailəmin yanına qaçdım. Evə çatdım ki, kimsə yoxdur, camaata qoşulub qaçmışdılar. Kəndin ayağında onları tapdım. Silahım, ehtiyat güllələrim, qumbaralarım da var idi. Qar yağırdı. Bayırda dayanmaq mümkün deyildi. Dedilər ki, Ağdama keçmək üçün ermənilər xocalılılara dəhliz verəcək. Ancaq tələ olduğunu düşünüb meşə tərəfə üz tutduq. Ailəmlə birgə Qarqar çayına doğru getdik. Ermənilərə inanıb təxminən mindən çox xocalılı yuxarı qalxdı. Camaat bizdən yarım saat olardı ki, aralanmışdı, birdən güclü atəş səsləri eşidildi.

### Təslim olmamaq üçün hündür qayadan özümü atdım

- Bir az getmişdik ki, atışma başladı. Uşaqları qoyub ön tərəfə qaçdım. İnsanların yarısını ermənilər orada güllələdilər. Bir neçəsi özünü qayadan atmışdı. Ermənilər hər tərəfdə pusqu qurmuşdular. Bizi mühasirəyə alıb, təslim olmağımızı istədilər. Fikirləşdik ki, təslim olsaq da, vuruşsaq da, onsuz da öləcəyik. Mən oradan sağ çıxmaq istəyirdim. Ona görə də silahımı atmadım. Qarşımızda kiçik qaya var idi, önümüzdə də üç erməni dayanmışdı. Yanımda dayanan Məhəmməd kişiyə dedim ki, yerindən tərpənmə, yoxsa vuracaqlar. Kişi qorxdu, özünü qayadan atmaq istəyəndə ermənilər onu vurdular. Cəsədi dağdan aşağı yuvarlandı. Ermənilər elə bildilər ki, Məhəmməd kişi təkdir. Qayanın arxasından çıxıb həmin 3 ermənidən birini vurdum. Digərləri dərhal gizləndi. Sonra ələ keçməyim deyə özümü qayadan aşağı atdım. Qaya çox hündür idi. Yerdəki qarın çox olması hesabına sağ qaldım.

Özümə gəlib meşəyə tərəf hərəkət etməyə başladım. Meşəyə çatmağa 50-70 metr qalmış necə güllə atdılarsa, yer ayağımın altından sanki getdi. Ayılanda gördüm ki, üz-gözümdə qan yoxdur. Amma ayağımdan qan axırdı. Sən demə, hər iki ayağımı qəlpə deşib keçib. Birtəhər meşəyə tərəf getmək istəyirdim ki, ermənilər məni görüb vurdular. Bundan sonra heç nə hiss etmədim.

### Elə biliblər ki, ölmüşəm, məni ocağın üstünə atıblar

- Ayılanda gördüm ki, ətrafım ermənilərdi, məni girov götürüblər. Orada dünyanın müxtəlif yerlərindən gəlmiş ermənilər də vardı. Suriya, Livandan olan ermənilər bizim dildə təmiz danışırdılar. Ermənilər əvvəlcə məndən soruşdular ki, hərbçisən? Dedim, yox, fəhləyəm. İnanmadılar və huşum itənə kimi məni döydülər.

Ayıldım ki, səhərdir. Donuz fermasındayam, qayınatam, uşaqlarım, ailəm də burada idi. Gördüm ki, əynimdə forma yoxdur. Sən demə, ermənilər məni ölənə qədər döyüblər və elə biliblər ki, ölmüşəm, məni yanan ocağın üstünə atıblar. Qayınatam məni xilas edib, əynimi dərhal soyundurublar. Elə vəziyyətə düşmüşəm ki, yanmağımdan da xəbərim olmayıb. Əlim-ayağım yanmışdı.

Səhər yenidən gəlib məni sorğu-sual etməyə apardılar. Soruşurdular ki, "icra başçısı Elman Məmmədov, Tofiq Hüseynov, Əlif Hacıyev sizinlə birlikdə idi?" Mən də deyirdim ki, onları tanımıram. Bilirdim ki, ermənilər onları axtarır.

### Əsir oğlanları aparıb qurban kəsirdilər

- Hər gün saatlarla mənə işgəncə verirdilər. Daşla, armaturla sümüklərimə elə vururdular ki... O qədər döymüşdülər ki, gözlərim görmürdü. Döyüldükdən sonra bayırdakı buzun üstünə atırdılar. Aldığım zərbələrin ağrısı həmin buzun yanğısı qədər mənə acı çəkdirmirdi. Buz məni kəsirdi, alışıb yanırdım. Kənardan baxıb gülürdülər.

Erməni qadınlar gəlib cavan və bir az salamat əsirlər arasından özlərinə qurban seçirdilər. Onları aparıb atalarının, qardaşlarının qəbirlərinin üstündə qurban kəsirdilər. Mən elə döyülmüşdüm ki, heç kim məni götürmürdü. 17 yaşlı qaynım Cavan Orucovu da aparıb öldürdülər. Bir gün məni də qadınlara təhvil vermək istəyirdilər, amma məni götürmədilər ki, bunu istəmirik, bu, artıq ölüdür. Çünki çənəmi, burnumu, qabırğamı, ayaq barmaqlarımı sındırmışdılar.

Qayınatam deyirdi ki, hərbçiləri dəyişmək istəyirlər, deyək, səni də dəyişsinlər. Razı olmurdum ki, ölərəmsə, burda öləcəm. Siz gedərsiz, deyərsiz ki, bizə görə öldü. Cavanlardan bir mən qalmışdım, bir də Faiq adlı bir oğlan. Onu bayıra çıxarıb 32 güllə ilə öldürdülər.

Edik adlı erməni məni də güllələmək istəyirdi. O, silahı ağzıma necə soxdusa, bütün dişlərim qırılıb töküldü. Dedi ki, bayıra çıxarın, güllələyəcəm. Mən çıxanda gördüm ki, Faiq hələ can verir. Dedim, icazə verin onun çiynini divara söykəyim, canını tapşırsın. Razılaşdılar. Amma yanıma bir erməni gəldi. Faiqin çiynini divara söykəyəndə yapışdım erməninin silahından. Silahı əlindən almışdım ki, arxadan başıma armaturla vurdular. Bu vəziyyətdə məni o qədər döydülər ki...

### Anamın isti nəfəsini duyub yenidən dirildim

Başımı kəsmək istəyirdilər. Məni aparanda elə biliblər ki, artıq ölmüşəm. Ona görə də qarın üstnə atıb geri qayıdıblar. Sonra kimsə məni götürüb gətirmişdi girovların saxlanıldığı yerə. Çox döyüldüyümdən özümdən getmişdim. Girovluğun 26-cı günündə gəlib soruşdular ki, Hüseynağa kimdir? Əlimi qaldırıb deyə bilmədim ki, mənəm. Halım yox idi. Yanımda olanlar məni göstərdilər. Dedilər ki, onu dəyişdirmək istəyirlər. Gördülər çox pisəm, dedilər, eybi yox, dəyişdirilənə kimi sağ qalsın. Məcbur etdilər ki, özüm yeriyim.

Dəyişdirilən zaman çox yeriyə bilmədim, bir neçə addım getdikdən sonra yerə yıxıldım. Öldüyümü zənn edib məni Ağdam morquna aparıblar. Anamla dayım məni orada tapıblar. Dayım mələfəni qaldırıb üzümə baxıb bağlayıb. Üzümə işıq düşdüyünü hiss edirdim, amma səsimi çıxara bilmirdim. Anam mənimlə vidalaşmaq üçün üzünü üzümə dayayanda görüb ki, nəfəsim gedib-gəlir. Bu anda "balam sağdır" deyə bərkdən qışqırıb...

Məni dərhal Bakıya aparıblar. Xəstəxanada olanda deyiblər ki, bir neçə gün ömrü qalıb. Amma Tanrı mənə ikinci ömür verdi. Həyat yoldaşımı əsirlikdə dəyişərkən isə onlara lazım olan erməninin adını yazıb vermişdilər ki, əgər bizimkilər o ermənini verməslər, oğlanlarımı geri qaytarmayacaqlar. Çox şükür ki, uşaqlarımı da geri ala bildik.

*Ürək dağlayan fikirləri həm söyləmək, həm də dinləmək faciəni yenidən yaşamaq kimidir. Hüseynağanın yaşadığı dəhşətli işgəncələr, ailəsinin çəkdiyi məşəqqətlər erməni vandalizminin əyani təsdiqidir. Təkcə bir gəncin yaşadıqları Xocalıda törədilən qətliamın dünyanın ən ağır soyqırımlarından biri olduğunu təsdiq edir.*

*Hər gün bu ağrı-acı ilə yaşayan Hüseynağanın bircə arzusu var - tökülən qanlar yerdə qalmasın.*

**Fərizə ƏHMƏDOVA,**
**Ağaəli MƏMMƏDOV (foto),**
**"Azərbaycan"**

# Vyanada faciənin qurbanlarına həsr olunan sərgi açılıb

Fevralın 22-də Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində Xocalı soyqırımının ildönümünə həsr olunan anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbiri açan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova Azərbaycan xalqının tarixində ən faciəvi səhifələrdən biri olan Xocalı hadisələri barədə məlumat verib.



Qeyd edilib ki, 27 il bundan öncə törədilmiş soyqırımına hələ də beynəlxalq hüquqi qiymət verilməyib. L.Qasımova tədbirin ərsəyə gəlməsində göstərdiyi əməkdaşlığa görə Avstriya Azərbaycanlıları Cəmiyyətinə təşəkkür edib.

Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov bildirib ki, münaqişədən əvvəl - 1987-ci ildə yeddi min əhalisi olan Xocalı şəhərində 1992-ci ilin fevral günlərində üç min dinc sakin var idi. 366-cı motoatıcı alayın dəstəyindən istifadə edən erməni silahlı qüvvələri fevralın 25-dən 26-na keçən gecə dinc sakinlərə qarşı qətliam törətdilər, bu şəhəri yer üzündən sildilər. Xocalı faciəsində 613 nəfər qəddarcasına qətlə yetirildi, yüzlərlə sakin yaralandı, əsir götürüldü və ya itkin düşdü. Həmin gecə Xocalı sakinləri məhz azərbaycanlı olduqlarına və bu etnik mənsubiyyətlərinə görə soyqırımına məruz qaldılar. Beynəlxalq hüquq və normalara görə həmin hadisə soyqırımı şərtlərinə cavab verir.

Qeyd edilib ki, Azərbaycan dövləti tərəfindən bu faciəyə hüquqi qiymət verilib və bu soyqırımının beynəlxalq müstəvidə tanıdılması, ona ədalətli qiymətin verilməsi istiqamətində mütəmadi iş aparılır. Bu kontekstdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası və həmin kampaniya çərçivəsində görülən işlər diqqətə çatdırılıb.

Milli Məclis Sədrinin müavini Bahar Muradova çıxışında bildirib ki, törədilən hər bir cinayətə görə Cinayət Məcəlləsində cəza nəzərdə tutulur və cinayətkarlar cəzalandırılır. 27 il bundan öncə Xocalı soyqırımını törədənlər isə hələ də bu bəşəri cinayətə görə ədalət qarşısında mühakimə olunmayıblar. Xocalı və digər şəhər-kəndlərdə əli dinc azərbaycanlı sakinlərin qanına batan cinayətkarlar sonradan Ermənistanda hakimiyyətə gəlsələr də, bu ölkədə baş verən inqilabdan sonra onların bir qismini cinayət mühakiməsi gözləyir və Xocalıda törətdikləri bəşəri cinayətlərə görə də cavab verəcəkləri gün gələcək.

Bahar Muradova vurğulayıb ki, indiyədək dünyanın on beş ölkəsində Xocalı faciəsinin soyqırımı kimi tanındığı qərarlar qəbul olunub və bu proses davam edir. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması bir tərəfdən günahsız qurbanların ruhu qarşısında ədalətin bərpasına xidmət edir, digər tərəfdən isə dünyada bir daha bu kimi dəhşətlərin baş verməməsi üçün çağırış rolunu oynayır.

Sonra Azərbaycanın xalq rəssamı Əşrəf Heybətli Xocalı soyqırımına həsr olunmuş sərgi barədə məlumat verib. Qeyd edib ki, həmin hadisələrin baş verdiyi gün nəzərə alınaraq sərgidə 25 əsər təqdim olunur.

Tədbir çərçivəsində yazıçı, publisist və müstəqil jurnalist Səriyyə Cəfərovanın müəllifi olduğu "Onlar heç zaman böyüməyəcəklər" sənədli filmi təqdim edilib.

# Ağsulular tibbi müayinədən razılıq edirlər





Əvvəlki vaxtlarla müqayisədə son günlər əhalinin xəstəxanalara axını daha da intensiv xarakter alıb. Bunu respublikamızın bütün bölgələrində müşahidə etmək mümkündür. Başlıca səbəb isə fevralın 12-dən başlayaraq Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızda əhalinin tibbi müayinələrdən keçirilməsinə başlanılmasıdır. Ağsunun tibb müəssisələrində də bunu görmək olur.

Xəstəxana ərazisinə daxil olarkən diqqəti cəlb edən vacib məqamlardan biri burada gigiyena qaydalarına ciddi əməl olunması idi. Qapıdan içəri daxil olan hər kəsə elə girişdəcə "baxıl" verilir və sakinlər onu geyindikdən sonra tibb işçiləri insanları təyinatı üzrə lazım olan həkimlərin yanına yönləndirirdilər.

Ağsu Rayon Mərkəzi Xəstəxanasının baş həkiminin müavini Əli Hüseynov bildirdi ki, tibbi müayinələrə başlandığı gündən təxminən 5 min nəfərdən çox sakin müayinədən keçib. Onlardan 312 nəfəri ambulator, 6 nəfəri isə ixtisaslaşdırılmış tibbi müəssisələrə (nevroloji, kardioloji) göndərilib. 5 nəfər isə stasionar müalicəyə cəlb olunub. Ümumilikdə isə rayon üzrə 57 min 200 nəfərin müayinədən keçirilməsi nəzərdə tutulur.

Ağsuda tibbi müayinələrin aparılması 10 ərazidə reallaşdırılır. Bunlara RMX-dən başqa Kalva kənd xəstəxanası və kəndlərdə fəaliyyət göstərən 8 həkim məntəqəsi daxildir. Müəyyənləşdirilmiş tibb müəssisələrinin hər biri müayinələrin düzgün və lazımi səviyyədə aparılması üçün bütün zəruri avadanlıq və tibb heyəti ilə təmin olunub.

Ucqar kəndlərdə yaşayan və müayinə üçün müəyyənləşən tibb ocağına gəlmək imkanı olmayan insanlar da prosesdən kənarda qalmırlar. Bu məqsədlə RMX-nin baş həkiminin əmri ilə 4 səyyar briqada yaradılıb. İxtisaslı həkim və tibb bacılarının cəlb olunduqları briqadalar tərtib edilmiş qrafik əsasında vaxtaşırı yerlərdə olur və sağlamlıq imkanları məhdud olan şəxslərə yaşadıqları ünvanlarda tibbi xidmət göstərirlər.

Ağsuda daha çox müşahidə olunan xəstəliklər sırasında isə nevroloji və kardioloji xəstəliklər üstünlük təşkil edir. Yaxşıdır ki, burada tam komplektləşmiş şəkildə olmasa belə, bütün ixtisaslar üzrə həkimlər fəaliyyət göstərir.

Müayinə olunan sakinlərə yaxınlaşırıq. Emin Məlikov Hacıuşağı kənd sakinidir. Dediyinə görə, həyətdə işləyən zaman təsadüfən gözünə dəmir qırığı düşüb. Bu da onu xeyli narahat edirmiş. Həkimlərin müdaxiləsindən sonra gözündəki metal parçası çıxarılıb və indi özünü çox yaxşı hiss edir. Buna görə də belə müayinələrin təşkilinə görə dövlət başçısına minnətdarlığını bildirir.

Vüsal Pirişov isə Ərəbşahı kəndindəndir. Dediyinə görə, sağlamlığında ciddi narahatlığı yoxdur. Sadəcə olaraq dövlətin yaratdığı mövcud imkandan istifadə edərək sağlamlığına bir daha əmin olmaq niyyətindədir.

Rüstəm Vahidov Çiyni kəndindən gəlib. 2016-cı ildən şəkər xəstəsidir. Həkimlərin davamlı məsləhəti ilə xəstəliyi çox da ağırlaşmayıb. Bu baxımdan ölkədə tibbin inkişafına dəstək verən dövlət başçısına minnətdarlığını bildirdi.

**Əli SƏLİMOV,**
**"Azərbaycan"**

# Əhalinin pulsuz müayinəsi davam edir





Prezident İlham Əliyevin tapşırığına əsasən, fevralın 12-dən başlayaraq ölkəmizin hər yerində əhalinin tibbi müayinəsi keçirilir. Müayinələrin mütəşəkkil keçməsi üçün Ağstafada 4 həkim briqadası yaradılaraq lazımi tibbi avadanlıqlarla təmin edilmişdir.

Bundan başqa, səhiyyə ocaqlarına gələ bilməyən bəzi xəstələrin tibbi müayinədən kənarda qalmaması üçün səyyar həkim briqadası yaradılmış, eləcə də dərman və tibbi ləvazimatlarla təmin edilmişlər.

Mərkəzi rayon xəstəxanasının baş həkimi Fatma Vəliyeva söhbət zamanı dedi ki, fevralın 21-dək rayon əhalisinin 12 min 231 nəfəri tibbi müayinədən keçmiş, insanlar öz sağlamlıq durumları barədə ətraflı məlumat almışlar. Müayinədən keçən rayon sakinlərindən 43 nəfəri stasionar müalicəyə, 1109 nəfəri isə ambulator müayinəyə cəlb edilmiş, 25 nəfər ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilmiş, 10 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

Pulsuz keçirilən aksiya zamanı rayonun sərhəd kəndlərinin əhalisi xüsusilə diqqət mərkəzində saxlanılır. Elə bunun nəticəsidir ki, fevralın 19-da rayonun Köhnə Qışlaq kəndində keçirilən iki günlük tibbi müayinələrdə 430 nəfər həkimlərin xidmətindən yararlanmışdır.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

# Soyqırımının ildönümü ilə əlaqədar Ermənistanın İsveçdəki səfirliyinin qarşısında aksiya keçirilib

Ermənistanın İsveçin paytaxtı Stokholmdakı səfirliyinin qarşısında Skandinaviya Azərbaycanlılarının Koordinasiya Şurası tərəfindən Xocalı faciəsinin növbəti ildönümü ilə əlaqədar aksiya keçirilib.

AZƏRTAC xəbər verir ki, İsveçdə fəaliyyət göstərən müxtəlif diaspor cəmiyyətlərinin və fəalların qatıldıqları aksiyada Xocalı soyqırımı və Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti haqqında məlumat verən plakatlar qurulmuşdu. Əllərində Azərbaycan, Türkiyə və İsveç bayraqları olan aksiya iştirakçıları 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində dinc sakinlərə qarşı həyata keçirilmiş amansız hərbi əməliyyatlarla bağlı yerli ictimaiyyəti məlumatlandırıblar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı haqqında müxtəlif dillərdə informasiyanın olduğu broşürlər Stokholm sakinlərinə təqdim olunub.

Daha sonra Skandinaviya Azərbaycanlılarının Koordinasiya Şurası tərəfindən Xocalı hadisələri haqqında bəyanat qəbul olunub. İsveç hökumətinə, parlamentinə, Ermənistanın İsveçdəki səfirliyinə ünvanlanmış bəyanatda Xocalı faciəsi ilə bağlı ətraflı məlumat verilib. Sənəddə qeyd olunub ki, bir gecə ərzində 613 nəfər Xocalı sakininin qətlə yetirilməsi, 8 ailənin tamamilə məhv edilməsi, 487 şəxsin yaralanması və 1275 nəfərin əsir götürülməsi, 197 sakinin itkin düşməsi dünya ictimaiyyəti tərəfindən kəskin şəkildə pislənməli, gələcəkdə belə faciələrin baş verməməsi üçün Xocalı hadisələrinə düzgün siyasi qiymət verilməlidir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# REGİONLAR



# Uğura aparan yol

## Son illər İsmayıllının aqrar sektorunda əhəmiyyətli irəliləyişlərə nail olunub

İsmayıllı yerləşdiyi ərazinin mürəkkəbliyinə baxmayaraq, aqrar sektor üçün əlverişli rayon hesab edilir.













Onu da qeyd edək ki, ərazinin xeyli hissəsi kənd təsərrüfatı təyinatlı torpaqlardır. İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Həsən Həsənov dedi ki, kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin 34 faizi əkinəyararlıdır. Əkin sahələri dəmyə şəraitində becərildiyi üçün hər il 29-30 min hektarda taxıl əkilir.

Ümumiyyətlə, rayon iqtisadiyyatının əsasını bitkiçilik və heyvandarlıq təşkil edir. Son 5 ilin statistikasına nəzər salaq: 2015-ci il yanvarın 1-nə faktiki məhsul istehsalında kənd təsərrüfatının payı 72 milyon 949 min manat olmuşdusa, 1 yanvar 2019-cu ilə bu rəqəm 95 milyon 757.8 min manat təşkil etmişdir.

Rayonda ənənəvi sahələrlə yanaşı, tütünçülük və baramaçılıq kimi ixrac imkanları geniş olan sahələr də inkişaf edir. Əgər 2016-cı ildə tütünün əkin sahəsi 5 hektar, məhsul istehsalı 3,4 ton idisə, 2018-ci ildə tütünün əkin sahəsi 22 hektara, məhsul istehsalı 41,72 tona çatmışdır. Barama istehsalı 2016-cı ildə 900 kiloqrama yaxın olduğu halda 2018-ci ildə 4,3 dəfə artmışdır. Başqa bir fakt: payızlıq, yazlıq dənli və dənli paxlalılar üzrə məhsul istehsalı isə son 5 il ərzində 21 min tondan çox artmışdır.

İsmayıllının dağlıq zonasında yaşayan əhalinin əsas məşğuliyyəti və gəlir mənbəyi kartofçuluqdur. 2018-ci ildə kartof istehsalı 10 min 415 tona çatmışdır. Son illər sənaye üsulu ilə 200 hektar sahədə kartof əkilib. Həmin sahələrdə məhsuldarlıq 400 sentnerdən çox olub.

Xarakterik sahələrdən biri də tərəvəzçilikdir. Son beş ildə bu istiqamətdə də irəliləyiş müşahidə edilir. 2014-cü ildə 7490 ton tərəvəz istehsal edildiyi halda, 2018-ci ildə bu rəqəm 9100.3 tona çatdırılmışdır.

Rayonda açıq sahə tərəvəzçiliyi ilə yanaşı, örtülü torpaq tərəvəzçiliyi də inkişaf edir. Hazırda 78 istixana təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda keçən il 20,2 ton məhsul istehsal olunaraq daxili bazarın tələbatının ödənilməsinə yönəldilmişdir.

İsmayıllıda insanların faydalandığı sahələrdən biri də meyvəçilikdir. 2014-cü ildə meyvə bağlarının ümumi sahəsi 1158 hektar olduğu halda, 2018-ci ildə təxminən 3 dəfəyə qədər artıb.

Özünəməxsus dadı olan qızıləhmədi alma sortunun İsmayıllının "brend"i olduğunu desək, yanılmarıq. Son 5 il ərzində rayon ərazisində 269.7 hektar intensiv meyvə bağı salınıb. Belə bağların hər hektarından orta hesabla 40 tondan çox məhsul götürülür.



Rayonda son 3 ildə 2004 hektar sahədə yeni fındıq bağları da salınıb.

"2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icrası çərçivəsində üzüm bağlarının sahəsi 934 hektardan 1087,3 hektara çatdırılıb. Məhsul istehsalı 4124 tonadək artıb.

Kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması tədbirlərinin aparılması sahəsində də ciddi addımlar atılır. Dənli-taxıl, bostan-tərəvəz bitkilərinə, meyvə və üzüm bağlarına, tütünçülüyə, süni mayalandırma yolu ilə alınmış buzovlara və barama istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsi, güzəştli qiymətlərlə gübrə və bitki mühafizə vasitələrinin satışı sakinlərin məşğul olduqları sahələrə marağını xeyli artırıb. Kənd təsərrüfatı məhsulları istehsalçılarına 2014-2018-ci illər ərzində ümumilikdə 9 milyon 614 min manatdan çox subsidiya ödənilib.

Bundan əlavə, toxumçuluq təsərrüfatlarına satdıqları yüksək reproduksiyalı buğda və arpa toxumuna görə bu dövrdə 506 min 211 manat subsidiya verilib. Dövlət büdcəsinin vəsaiti hesabına güzəştli qiymətlərlə istehsalçılara 7,07 milyon manatlıq gübrə çatdırılıb.

Regionların sosial-iqtisadi inkişafı III Dövlət Proqramı çərçivəsində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə yanaşı, emala, saxlanmaya, satışa xidmət edən bir sıra müəssisə və obyektlər də istifadəyə verilib. "Yaşıl Market" ticarət mərkəzini, Topçu kəndindəki "Fermer mağazası"nı, Kürdmaşı kəndində aqroparkın nəzdində istehsal gücü 3 min ton olan soyuducu anbarı buna misal göstərmək olar.

Kürdmaşı kəndində sovetlər dövründə inşa olunmuş 1 №-li Şərab zavodu da yenidən qurularaq istifadəyə verilib. Talış kəndində kiçik həcmli süd emalı sexi fəaliyyətə başlayıb.

Keyvəndi kəndində 1500 başlıq müasir heyvandarlıq kompleksinə "Azza-aqro" şirkəti tərəfindən "Aqrolizinq" ASC-nin xətti ilə 2018-ci ildə Almaniyadan 197 baş "Holştin-friz" cinsli düyələr gətirilib. Yaxın zamanlarda daha 200 düyənin gətirilməsi nəzərdə tutulub. Kompleksin tikintisi üçün Sahibkarlığa Kömək Milli Fondundan 3,5 milyon manat kredit götürülüb.

***Əli SƏLİMOV, "Azərbaycan"***



# İnfrastruktur

## Su təkcə aydınlıq deyil...

Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri arasında içməli su təchizatının yaxşılaşdırılması və kanalizasiya sistemlərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Bu iş regionlar üçün daha əhəmiyyətlidir. Ona görə də növbəti illərdə də həmin prosesin davam etdirilməsi nəzərdə tutulur.

Göyçay şəhərində 43 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmış "Şəhər su təchizatı və kanalizasiya layihəsi"nin icrasına 2008-ci, "Su təchizatı və kanalizasiya investisiya proqramı" layihəsinin icrasına isə 2012-ci ildə start verilib. Görülən işlərin yekunu haqqında ətraflı məlumat verən "Sukanal" sahəsinin rəisi Murtuz Salahov bildirdi ki, Göyçay şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi 1930-1970-ci illərdə mərhələlərlə yaradılıb. Bu baxımdan həmin sistem fiziki cəhətdən köhnəldiyindən istismara yararsız vəziyyətə düşmüşdü. Yeni layihə icra olunana qədər abonentlərə içməli su sutkada 1 saat olmaqla qrafiklə verilirdi.

Yeni layihələrin icrasına başlandıqdan sonra vəziyyət müsbət istiqamətdə dəyişib. Qeyd edək ki, rayonun içməli su mənbələri əsasən Potu kəndində yerləşir. Orada yeni layihə üzrə 7 subartezian quyusu qazılıb. Həmin quyular 2015-ci ildən istismardadır. Müvafiq quyulardan qəbul olunan su ərazidəki 1 nömrəli mərkəzi nasosxanaya daxil olaraq hər biri 500 kubmetr olan 2 su anbarına tökülür. Burada xlorlanma getdikdən sonra ötürücü boru vasitəsilə 2 min kubmetrlik 4 su anbarına ötürülür. Oradan paylanan su sakinlərin içməli su tələbatını təmin edir.

Sahə rəisi deyir ki, artıq şəhər sakinləri içməli su ilə tam təmin olunur. Verilən suyun uçot sisteminin dəqiq aparılması üçün 9 min 800-dən çox abonent üçün sayğac quraşdırılıb ki, onların da təxminən 95 faizi smart-kart tiplidir. Tullantı sularının təmizlənməsi məqsədilə məhsuldarlığı sutkada 20 min kubmetr olan qurğunun tikintisi isə 2 il əvvəl başa çatdırılıb.

Müsahibimiz əlavə olaraq bildirdi ki, Göyçay rayonunun 14 kəndində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə icra olunan layihə də yekunlaşıb. Bu layihədən 40 mindən artıq sakin faydalanır. Ümumiyyətlə, rayonun 55 kəndinin hamısında hazırda su var. Bir sıra kəndlərə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə sutəmizləyici qurğular quraşdırılıb. Həmin qurğular 21 kəndi əhatə edir. Şəhadət kəndində isə Göyçay şəhərinin çirkli sularını təmizləyən qurğu kompleksinin tikintisi başa çatdırılıb.

***"Azərbaycan"***

# Gediş-gəliş rahat olur

Regionların sosial-iqtisadi inkişafına dair dövlət poqramlarının uğurla yerinə yetirilməsi sayəsində Ağsu rayonunda da bir sıra mühüm layihələr həyata keçirilmiş, genişmiqyaslı abadlıq-quruculuq illəri görülmüş, o cümlədən yol-nəqliyyat infrastrukturu xeyli yaxşılaşdırılmışdır.

Əhalinin rahat gediş-gəlişini təmin etmək üçün bu işlər indi də davam edir. 16 nömrəli Yol İstismarı MMC-nin baş mühəndisi Eyyub Məcidov bununla bağlı dedi ki, kollektivimiz 268 kilometr avtomobil yoluna xidmət edir. Bunun 18 kilometri respublika, qalanı yerli əhəmiyyətli yollardır.

Son 5 ildə yolların yenidən qurulması daha da sürətlənib. 2013-cü ildə ümumi uzunluğu 27 kilometr olan Ağsu-Çaparlı-Bağırlı avtomobil yolu istifadəyə verilib. 2017-ci ildə ümumi uzunluğu 28,1 kilometr olan Çaparlı-Kəndoba-Cəlayir avtomobil yolunun tikintisi başa çatdırılıb. Həmin yollardan Çaparlı, Qiyaslı, Abasxanlı, Kəndoba, Cəlayir, Cəfərli və Hacıuşağı kəndlərinin 8 minə yaxın sakini istifadə edir. Bu yollar yenidən qurulandan sonra sakinlər yetişdirdikləri məhsulları istehlakçılara daha tez çatdırır, rayon mərkəzinə daha rahat gedib-gələ bilirlər. Həmin kəndlərin hər birində iki dayanacaq da quraşdırılmışdır.

2018-ci ildən isə Muğanlı-İsmayıllı avtomobil yolunun 5-ci kilometrliyindən ayrılan, Ağsu şəhərinin mərkəzindən 41 kilometrlik məsafədə yerləşən 15 kilometrlik Dilman-Xatman yolu əsaslı şəkildə yenidən qurulur. Bu yol Xatman, Dilman, Hacman, Kalva və Sanqalan kəndlərini birləşdirir. Yolun tikintisi başa çatdıqdan sonra bu kəndlərdə yaşayan 5 minə yaxın əhalinin gediş-gəlişi də asanlaşacaq.

Baş mühəndis onu da qeyd etdi ki, rayonun ərazisindəki yolların çox hissəsi çınqıl örtüklüdür. Bu yollar da daim nəzarətdə saxlanılır, müntəzəm olaraq qreyderlərlə hamarlanır, avtomobillərin rahat və fasiləsiz hərəkəti təmin edilir.

***"Azərbaycan"***



# İdxalı əvəz edən yerli istehsala daha çox diqqət yetirilir

Həyata keçirilən iqtisadi islahatlar respublikamızın digər rayonları kimi, Tovuzda da sosial-iqtisadi inkişafa dinamik xarakter vermişdir. Qəbul olunmuş dövlət proqramlarının icrası nəticəsində rayon mərkəzi ilə yanaşı, kənd və qəsəbələrdə yenidənqurma, tikinti-quruculuq və abadlıq işləri geniş vüsət almış, infrastruktur layihələrinin həyata keçirilməsi sayəsində bir çox problemlər aradan qaldırılmışdır.












Rayonun iqtisadiyyatında əkinçilik və heyvandarlıq aparıcı rol oynasa da, digər sahələrin inkişafına diqqət artırılmışdır. Kartofçuluq, taxılçılıq, üzümçülük, tütünçülük və digər kənd təsərrüfatı bitkilərinin əkin sahələri genişləndirilmiş, idxalı əvəz edən yerli istehsala daha çox diqqət yetirilmişdir. Hazırda rayonda 26000 hektar sahədə kənd təsərrüfatı bitkiləri əkilib-becərilir. Rayon üzrə 23348 hektar sahə torpaq mülkiyyətçilərinin öhdəsindədir. Əvvəlki illərdə olduğu kimi, keçən il də torpaq mülkiyyətçiləri əkin sahələrindən səmərəli istifadə etməklə yüksək göstəricilərə nail olmuşlar. 19450 hektar sahədə buğda əkilmiş, 63018 ton məhsul toplanaraq orta hesabla hər hektarın məhsuldarlığı 32,4 sentnerə çatdırılmışdır. Arpa və qarğıdalı sahələrindən də yüksək məhsul götürülmüşdür.

Ümumiyyətlə, son illər rayonda elə sahə yoxdur ki, irəliləyiş olmasın. Məsələn, 6628 hektardan 144412 ton kartof, 1279 hektardan 26297 ton tərəvəz, 500 hektardan 35521 ton şəkər çuğunduru, 324 hektardan 17662 ton giləmeyvə, 725 hektardan 12096 ton üzüm, 3609 hektardan 29684 ton yem bitkiləri götürülmüşdür.

Heyvandarlığa göstərilən diqqət və qayğı nəticəsində keçən il iribuynuzlu heyvanların baş sayı 43992-yə, qoyun və keçilərin baş sayı 200349-a çatmışdır. Nəticədə 8304 ton ət, 33595 ton süd istehsal edilmişdir.

Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması da daim diqqətdə saxlanılır. Bu məqsədlə keçən il fermerlərə lizinq yolu ilə xaricdən gətirilmiş 19 baş cins inək satılmış, 698 baş yerli inəklərdə süni mayalama aparılmış, 419 baş bala alınmışdır.

Tütünçülər də son bir neçə ildə uğurlu göstəricilərə nail olmuşlar. Bu gəlirli sahənin daha da inkişaf etdirilməsi üçün əkin sahələri genişləndirilərək 50 hektara çatdırılmış, keçən il 53,3 ton quru tütün tədarük olunmuşdur.

Keçən il kümçülər 9870 kiloqram barama istehsal edərək "Şəki İpək" ASC-yə təhvil vermişlər. Hazırda baramaçılığı daha da inkişaf etdirmək məqsədilə etibarlı yem bazası yaradılır.

Rayonda kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərdə Dövlət Aqrar İnkişaf Mərkəzi də yaxından iştirak edir. Mərkəzin mütəxəssisləri fermerlərlə görüşür, mövcud problemlərin həllinə kömək göstərirlər. Tovuz Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Rəhman Qasımov deyir ki, mərkəz elektron hökumət portalının yaradılması istiqamətində fəaliyyətini artırıb. İndiyədək mütəxəssislərin iştirakı ilə 1500 torpaq sənədi işlənərək subsidiya siyasəti və informasiya sisteminə daxil edilmişdir. Bu iş davam etdirilir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Azərbaycan Parisdə 56-cı Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində təmsil olunur



Paris Sərgilər Parkında 56-cı Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin açılış mərasimi olub. Mərasimdə Fransa Prezidenti Emmanuel Makron dünyanın 40 ölkəsindən gəlmiş kənd təsərrüfatı nazirləri və dövlət katibləri qarşısında çıxış edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan sərgidə kənd təsərrüfatı naziri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur.

"Qadınlar, kişilər, istedadlar" mövzusuna həsr olunmuş beynəlxalq sərgidə kənd təsərrüfatının heyvandarlıq, bitkiçilik, bağçılıq, bostançılıq sahələri, peşə və xidmətlər, eləcə də dünyanın və Fransanın dənizətrafı region və departamentlərinin kənd təsərrüfatı məhsulları nümayiş etdirilir.

Qeyd edək ki, hər il 630-650 min ziyarətçi, minlərlə iştirakçı, 32 min mütəxəssis kənd təsərrüfatındakı yeniliklərlə tanış olmaq üçün bu beynəlxalq sərgiyə qatılır. Builki sərgi martın 3-dək davam edəcək.



## "Azərişıq" ASC 110/35/10 kV-luq "Buzovna 1" yarımstansiyasının yenidənqurma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

35/10 kV-luq boruların quraşdırılması və 110/35/10 kV-luq "Buzovna 1" yarımstansiyasının yenidənqurma işlərinin satın alınması - **700 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93, daxili (22-83))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- ***tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);***
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 aprel 2019-cu il saat 16:00**-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **15 aprel 2019-cu il saat 16:00**-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 aprel 2019-cu il tarixində saat 16:00**-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***


## Hava əsasən yağmursuz keçəcək

**Bakıda və Abşeron yarımadasında** havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman, çiskin olacaq. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 8-11° isti təşkil edəcək.

**Naxçıvan Muxtar Respublikasında** hava yağmursuz keçəcək, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 9-14° isti təşkil edəcək.

**Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy** rayonlarında hava əsasən yağmursuz keçəcək. Gündüz bəzi yerlərdə yağıntı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti təşkil edəcək.

**Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl** rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° isti, gündüz 10-15° isti təşkil edəcək.

**Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar** rayonlarında hava əsasən yağmursuz keçəcək. Axşam bəzi yerlərdə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 9-14° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

**Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala** rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 11-16° isti olacağı bildirilir.

**Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara** rayonlarında gün ərzində arabir çiskin olacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 10-15° isti, dağlarda gecə 1-3°, gündüz 5-10° isti olacağı gözlənilir.

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti***





## Hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı təlimləri keçirilib





Hərbi Hava Qüvvələrinin (HHQ) hava hücumundan müdafiə (HHM) hissə və bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr şərti düşmənin hava zərbələrinin dəf edilməsi, verilən tapşırığa əsasən qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətləri məşq etdirilib.

Təlimlərdə HHM bölmələri döyüş atışları icra ediblər.

# Beynəlxalq aləm

## ABŞ və Çin valyuta sazişi imzaladı



Çin nümayəndə heyətinin ABŞ-a səfərinin yekununa görə, tərəflər valyuta bazarının tənzimlənməsi sahəsində razılıq əldə edə bilmişlər. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

ABŞ-ın maliyyə naziri Stiven Mnuçinin dediyinə görə, fevralın 19-dan başlamış bir neçə günlük danışıqlar zamanı razılıq əldə olunmuşdur. Xəbərdə daha sonra deyilir ki, Çin Dövlət Şurası Baş nazirinin müavini Lü Henin rəhbərlik etdiyi nümayəndə heyəti sazişin bütün detallarının müzakirəsi üçün iki gün ABŞ-da qalacaq.

## Sudanda fövqəladə vəziyyət rejimi elan edilib



Sudanda keçirilən kütləvi etiraz aksiyalarına görə Prezident Ömər Bəşir Milli Barışıq Hökumətinin və yerli özünüidarə orqanlarının buraxıldığını elan etmişdir. Bundan əlavə, bütün ölkə ərazisində bir il müddətinə fövqəladə vəziyyət rejimi tətbiq olunmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Prezident parlamenti ona yeni müddətə namizədliyini irəli sürmək hüququ verən konstitusiyaya dəyişikliklərə baxılmasını da təxirə salmağa çağırmışdır.

Xatırladaq ki, ötən həftənin axırlarında Prezidentin istefasını tələb edən müxalifət partiyalarının təmsilçiləri polis tərəfindən saxlanmışdılar.

## Dünyada 25 milyondan çox qaçqın var



Hazırda dünyada 25 milyondan çox qaçqın var. İkinci Dünya müharibəsi illərindən bəri bu, ən yüksək göstəricidir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarının İdarəsindən verilən məlumata görə, ən çox qaçqın Suriya, Əfqanıstan, Cənubi Sudan, Myanma və Somalidəndir.

Bundan əvvəl Dünya Səhiyyə Təşkilatı (DST) məlumat vermişdi ki, Suriyanın şimal-şərqindəki qaçqınlar düşərgəsində uşaqlar, o cümlədən yeni doğulmuş körpələr kütləvi şəkildə həlak olurlar. Belə ki, iki ay ərzində Suriyada azı 29 uşaq dünyasını dəyişmişdir. Onların əksəriyyəti soyuqdan vəfat etmişdir.

## CAR-da şaxtada 18 nəfər ölüb



Cənubu Afrika Respublikasının Mpumalanqa əyalətində bir neçə gün əvvəl kömür şaxtasında baş vermiş partlayış nəticəsində həlak olanların sayı artmışdır. Hakimiyyət orqanlarının verdiyi məlumata görə, işləməyən şaxtadan avadanlıq oğurlamağa gedən Lesotonun azı 18 vətəndaşı orada ölmüşdür.

Tüstü axtarış-xilasetmə əməliyyatını çətinləşdirmişdir.

Bildirilir ki, şaxtada 42 nəfər olarkən metan qazı partlamışdır. 20 nəfərdən çox adam hələ də yerin altında qalır.

## Hindistanda azı 50 nəfər keyfiyyətsiz alkoqolun qurbanı oldu



Hindistanın şimal-şərqində azı 50 nəfər keyfiyyətsiz spirtli içkidən zəhərlənib həyatını itirmiş, 50 nəfər xəstəxanaya yerləşdirilmişdir. Bu barədə "əl-Cəzirə" telekanalı xəbər verir.

Polisdən verilən məlumata görə, həlak olanların əksəriyyəti Assam ştatındakı çay plantasiyalarının işçisidir. Onlar tərkibində metanol olan keyfiyyətsiz alkoqol qəbul etmişlər.

Spirtli içkini hazırlamış müəssisənin sahibi və dörd nəfər saxlanmışdır.

Xatırladaq ki, bundan əvvəl Hindistanda keyfiyyətsiz alkoqoldan zəhərlənmə nəticəsində 100 nəfərə yaxın adam dünyasını dəyişmişdir.

# Ermənistan Sarkisyan rejiminin yaratdığı problemlərdən qurtula bilmir

*Əvvəli 1-ci səh.*

Məsələ ilə bağlı parlamentin son iclasında "Çiçəklənən Ermənistan" partiyasından deputat Armen Ayvazyan baş nazirə sual verib. Nikol Paşinyan bunun zavodun daxili problemi olduğunu deyib. Ölkədəki xaotik vəziyyətdən istifadə edən Respublika Partiyasının sədr müavini Eduard Şarmazanov yenidən vətəndaşlara çağırış edib: "Hökumət sizi aldadır. İşsizlər ordusu hər ötən gün artır. Bəs hanı verilən vədlərin real nəticəsi? Ermənistan Müdafiə Nazirliyi xalqa yalan danışır. Orduda baş verən neqativ hallar gizlədilir. Əsgər öldürülür, açıqlama verilmir. Demək ki, müdafiə naziri Davit Tonoyan öz işinə səhlənkar yanaşır. Mən gənclərə müraciət edərək deyirəm: zor gücünə hakimiyyətə gətirdib kreslodа əyləşdirdiyiniz insanlar indi sizi aldatmaqla məşğuldurlar".

Nikol Paşinyan isə Şarmazanovun çağırışına sərt reaksiya verib. Bildirib ki, onun tənqid etdiyi Tanoyan özü də Sarkisyan komandasının üzvü, hətta ötən ilə kimi Respublika Partiyasının üzvü olub.

### "İdarəçilik sisteminin 90 faizi köhnə, 10 faizi isə yeni vəzifəli şəxslərdən ibarətdir"

Ermənistanda gedən proseslər göstərir ki, keçmiş hakimiyyət təmsilçiləri yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışırlar. Məsələ ilə bağlı "1-in.am" portalı yazır ki, ölkədə bu fonda yeni qarşıdurma yarana bilər: "Ermənistanın baş naziri Nikol Paşinyan hökumət proqramını parlamentə təqdim edərkən deyib ki, idarəçilik sisteminin 90 faizi köhnə, 10 faizi isə yeni vəzifəli şəxslərdən ibarətdir. Köhnələr öz fəaliyyətlərində nə isə bir yenilik etmək, yenilər isə köhnəni dəyişmək istəyirlər".

Beləliklə, baş nazir həssas və çoxqatlı reallığı təsdiqləyib. Paşinyan faktiki bəyan edib ki, "əks-inqilab" idarəçilk sistemində yerləşib və təxribata cəhd etməyə çalışırlar. Bu cəhd elə ötən ilin mayında, məsələn, vergilərin lazımi qaydada yığılmaması formasında edilib. Bundan əlavə, Nikol Paşinyan bəyan edib ki, parlament seçkilərində Respublika Partiyası məhz məmur-seçicilərin böyük miqdarda cəmləndiyi yerlərdə daha çox səs alıb. Baş nazir, mahiyyətcə, nəinki əks-inqilab təhdidini "qüvvədə saxlayıb", həm də bəyan edib ki, o, məhz idarəçilik sistemindədir.

Bu təsbit bir neçə baxımdan diqqətçəkəndir. Hər şeydən öncə, Nikol Paşinyan, əlbəttə, özü üçün əks-inqilab təhdidilə haqq qazandıra biləcək müəyyən hərəkət diapazonu saxlayır. Bu kontekstdə o, faktiki olaraq, güclü baş nazirlik hakimiyyətini saxlamağı və müəyyən planda hökumətin səlahiyyətlərini yenidən bölüşdürməyi nə üçün vacib hesab etdiyini əsaslandırır və arqumentlər gətirir.

### Əks-inqilab təhlükəsi

Məqalədə o da vurğulanır ki, Paşinyan öz bəyanatı ilə idarəetmə sisteminin bu təbəqəsinə və ya 90 faizinə bildirib ki, onlar sayıq və zillənmiş diqqət altındadırlar və istənilən anda "əks-inqilab"la mübarizə hədəfi ola bilərlər: "Eyni zamanda, məsələnin incəliyi ondan ibarətdir ki, Nikol Paşinyan vəziyyətin və təhlükələrin qiymətləndirilməsində haqlıdır, kadrların göstərilən nisbəti, ola bilsin bir neçə faizlik xəta ilə, həqiqətən doğrudur və təxribat reallığı faktiki mövcuddur. Burada sual yaranır: bəs ona daha çox kim nəzarət edir? Əmrlər yollayan köhnə sistem, yoxsa bu təbəqələrə Baş nazir vasitəsilə xəbərdarlıq edən yeni hökumət?

Bəlkə özbaşına hərəkət edən, nəzarət olunmayan və ya necə deyərlər, "öz-özünə yetərli" olan təxribat komponenti var. Bu halda, köhnə sistemin himayəsindən məhrum olan, eyni zamanda, idarəçilik sistemində qalan orta və aşağı səviyyəli məmurlar sadəcə, necə deyərlər, "öz təşəbbüslərilə" üsyana qalxırlar. Böyük ehtimalla, həm bu, həm də o biri hal var. Lakin necə olmasından asılı olmayaraq, heç bir şübhə yoxdur ki, idarəçilik sistemində təxribat və müəyyən əsəb və mövqe mübarizəsi, yeni hökumətin və köhnə sistemin birbaşa və dolayı yolla təsiri var. Burada sual yaranır: nə üçün "təxribatçılar" sistemdən uzaqlaşdırılmırlar? Yoxsa bunu aydınlaşdırmaq və əsaslandırmaq kifayət qədər mürəkkəbdir və ya "idarəolunan təxribat" Baş nazirin əlində olan siyasi xəritədir.

Digər tərəfdən, "agentlərin aşkar edilməsi"nin müəyyən bir prinsipi də var. Bu prinsipə əsasən, onların əks tərəfə qarşı istifadə edilməsi nəzərdə tutulur. Bu halda onlardan köhnə sistemin, necə deyərlər, "qərargahı"na çıxmaq üçün istifadə oluna bilər. Ancaq nəticədə dövlət idarəçilik sistemində bütün bunlar - taktiki xarakterli mövqe mübarizəsi baş verir. Lakin aydın deyil ki, bu mübarizə hansı dairədə, hansı intensivliklə gedir, idarəçiliyin effektivliyinə necə təsir edir. Əlbəttə, qaçılmaz, xüsusən də fəlakətli reallıq yoxdur, ancaq idarəçilik sisteminin bu "ikili" reallığı nə qədər davam edəcək?"

Bundan başqa, Nikol Paşinyan inqilabdan sonrakı qısa müddətdə mətbuat konfranslarının birində bildirib ki, vəzifəsinə görə o, elə həqiqətləri dərindən öyrənib ki, hətta bu onu qorxudur. Həmin mətbuat konfransından aylar, inqilabdan haradasa, on ay keçib. Bu, hökumətin siyasətində həqiqətin nə qədər yer tutduğu, ya onun yalan və saxtakarlığa nə qədər söykəndiyini dəyərləndirmək üçün yetərincə çox zaman dövrüdür.

### "Rəqabətsiz, acınacaqlı həyat keçirən adi bir ölkənin hökumət proqramı"

Yazıda o da qeyd olunur ki, bu günlərdə parlamentdə hökumətin proqramı qəbul olunub. Hökumət təmsilçiləri onu elə müdafiə və təqdim edirdilər ki, bu, sanki Ermənistanın qurtuluş proqramı idi: "Bununla belə, gerçəklik elədir ki, hökumətin bu proqramı orta səviyyəli adi sənəddir və iqtisadi inqilabla onun müəlliflərinin nə qədər saqqal saxladığı və üzərində "Ruhla" yazılmış papaq qoyduqlarıyla bir o qədər əlaqəsi var. Ermənistanın iqtisadiyyatda ətalətli inkişafı, xarici siyasətdə təcridçiliyi davam etdirəcəyi və təhlükəsizlik təminatının ancaq silahlı güclərin boynunda olacağı haqda hökumət proqramı. Hökumətin proqramı rəqabətsiz, acınacaqlı həyat keçirən, adi bir ölkənin sənədidir. Bununla belə, hakimiyyət daşıyıcılarımız tərəfindən elə təqdim edilir ki, guya son 30 ildə milləti xilas edən ilk strategiyadır. Yalandır. İkiüzlülükdür. Hakimiyyət deputatlarının son üç gündəki çıxışlarında yalan, saxtakarlıq və bəlağət payı o qədər böyük idi ki, istər-istəməz Serj Sarkisyana yaltaqlanan respublikaçıların belə davranışlarını xatırlayırıq. Onların sözlərində və ola bilsin, hətta düşüncələrində də həqiqət yoxdur, həqiqətin yerini yalan, ikiüzlülük, həqiqətlə manipulyasıya tutub.

Fəaliyyətdəki baş nazir Nikol Paşinyan bir zamanlar bildirirdi ki, super baş nazirlik sistemi yolverilməzdir. Bu gün bu sistemin saxlanması üçün hər şeyi edir. Və deməli, ya o zaman super baş nazirlik sisteminin yolverilməz olduğunu deyəndə yalan danışırdı, ya da bu gün hökumətin super baş nazirlik sistemindən addım-addım imtina edəcəyini deyəndə yalan danışır.

Nikol Paşinyan bir zamanlar bildirirdi - Ermənistanın Avrasiya İqtisadi Birliyinə (AİB) üzvlüyü yolverilməzdir, hər şeyi etmək gərəkdir ki, Ermənistan bu struktura üzvlüyü dayandırsın. Baş nazir Nikol Paşinyan bu gün deyir - hər şeyi etmək gərəkdir ki, Ermənistanın AİB-yə üzvlüyü daha effektli olsun. Deməli, o, ya o vaxt yalan danışırdı, ya da bu gün yalan deyir.

Hakimiyyət təhlükəli kateqoriyadır. Hakimiyyət insanı gerçəklikdən çox tezliklə və dərindən uzaqlaşdıra bilər. Gerçəklikdən ayrılmaq növbəti mərhələdə həqiqətdən ayrılmağa gətirər. Ya da həqiqətdən imtinaya. Bu isə öz növbəsində, buna səbəb olur ki, gerçəklik yalan və saxtakarlıqla, həqiqətə uyğunlaşdırılan manipulyasiya ilə dolur. Saxtakarlıq və manipulyasiyadansa gerçəklik də həqiqət kimi tez-tez daha sərt olur. Çünki həqiqət təcrübədən asılı deyil və obyektivdir, manipulyasiya isə konkret məqsədlə, birinci növbədə insanı, yaxud sistemi gerçəklikdən qoparmaq üçün qurulur. Manipulə edilən və saxta gerçəklikdə yaşamaq çox xoşdur, hər şey gözəl və işıqlıdır. Amma insan, ya da sistem yalan gerçəkliyə daha çox bulaşdıqca obyektiv gerçəkliyə bir o qədər çox yadlaşır, obyektiv gerçəklik bir o qədər qaranlıq və əzici olur.

İstənilən müxaliflik təzahür edəndə hakimiyyət təmsilçilərinin göstərdikləri açıq barışmazlığı məhz bununla izah etmək lazımdır. Çünki hər bir tənqid hakimiyyət təmsilçilərini manipulyativ gerçəklikdən ayırmaq və obyektiv gerçəkliyə qaytarmaq cəhdidir. Amma hakimiyyət özünü burada rahat və ehtiyacsız hiss edir və gerçək həyata dönmək istəmir. Bu, hakimiyyət və şəxsən baş nazir Nikol Paşinyan üçün son dərəcə təhlükəli fenomendir. O, yalan və saxtakarlığın rahat zonasından, heç olmasa, acı həqiqəti ehtiva edən gerçəkliyə mümkün qədər tez dönməsə, bu gün cəmiyyəti doyuzdurmağa çalışdığı yalanın qurbanı olacaq".

Bütün bu qeyd edilənlər aydın şəkildə sübut edir ki, Ermənistanda yaxın tezlikdə vəziyyət daha da gərginləşə bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıtdan Zakir Fərəcov Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8356
Sifariş 596
Qiyməti 40 qəpik